# GÖYƏRÇİN

İSSN-0207-4710
2012-ci il
5





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# HİYLƏGƏR ÇAQQAL

*(Hind nağılı)*

Meşədə bir Çaqqal yaşayırdı. Onun heç kəslə işi yox idi. Qışın oğlan çağından hər yan ağappaq qarla örtüləndə Çaqqal kəndə getmək qərarına gəldi. Bir evin həyətində o baş-bu başa dolandı, içməyə su axtardı. Su quyusu yaxınlıqda idi. Ancaq çaqqalın nə vedrəsi, nə də kəndiri var idi ki, su çəksin. O, başını quyuya soxdu. Gördü ki, su çox dərindədir. Çaqqal hirsləndi və qərara gəldi ki, hardansa od tapıb quyunu yandırsın.

Çaqqal hardansa od tapıb qayıdanda gördü ki, quyunun başı adamla doludu. Onlar bir çəpiş kəsib onu bişirmək istəyirdilər. Bir az aralıda içi su ilə dolu vedrə vardı. Çaqqal o sudan doyunca içdi. Adamlar ondan xahiş elədilər ki, bizə bir az od ver, ocaq qalayıb keçini bişirək. Çaqqal adamlara od verdi. Onlar ocaq qalayıb çəpişi bişirdilər. Sonra əti bölüb acgözlüklə yeməyə başladılar. Çaqqala heç bir tikə də ət vermədilər. Çaqqal özünü saxlaya bilməyib dedi:

-Qardaşlar, heç olmasa çəpişin ayaqlarını mənə verin.

Gülüb onu ələ saldılar:

-Məgər sənin öz ayaqların yoxdur?

Çaqqal bu dəfə bir kənara atılmış çəpiş başını istədi. Yenə onu lağa qoydular:

-Sənin ki öz başın var, çəpiş başı nəyinə gərəkdir?

Çaqqal hirsləndi və onlara verdiyi odu istədi. Adamlar ocağı göstərib dedilər:

-O ocaq, o da sən. Nə qədər istəyirsən, od götür.

Çaqqal ocaqdan bir kösöv götürüb getdi. Adamların başı yeyib içməyə qarışanda Çaqqal ot tayasını yandırdı. Alov noxud tarlasına keçdi. Çaqqal qışqırdı ki, insanlar onun səsini eşitsinlər. O, mahnı oxuyurdu:

Saman yanır çarthaçart,
Noxudlar edir parthapart.

Doğrudan da, qını yanan noxudlar parthapartla ətrafa səpələnirdi. Adamlar su daşıyıb yanğını söndürməyə çalışırdılar. Ancaq hər şey əbəs idi. Adamların başı yanğını söndürməyə qarışanda tülkü özünü quyunun yanına verdi. Süfrədə qalan ətin hamısını yedi.

Elə o vaxtdan belə bir məsəl qalıb ki, səndən bir şey istəsələr əsirgəmə. Aza qıymayan çoxdan da olar.

*Tərcümə edib işləyəni: R.Əliyev*

**Rəssam**
Aytən

